# İNKLÜZİV TƏHSİLİN PRİNSİPLƏRİ UNİVERSAL ÖYRƏNMƏ DİZAYNINDA

https://doi.org/10.5281/zenodo.19190789

**Bayramova Nübar İsmayıl qızı**
*ADPU-nun Quba filialının Humanitar və təbiət elmləri fakültəsinin dekanı vəzifəsini müvəqqəti icra edən.*
*050 742 02 42*
*bnubar65@gmail.com*

**Annotasiya**

*Bu danılmaz bir faktdır ki, hər bir insanın özünəməxsus xüsusiyyətləri, qabiliyyətləri vardır. Uşaqların bu özəlliklərini üzə çıxarmaq üçün ən ideal məkansa məktəblərdir. Lakin burda məqsəd uşaqları məktəblərə uyğunlaşdıraraq kəşf etməkdənsə, müasir məktəblərin təhsil mühitlərini şagirdlərinin müxtəlif fərdi xüsusiyyətlərinə əsaslanaraq dizayn etmək daha effektiv nəticə vrə bilər. Bunun üçün məktəbin bütün iştirakçılarının təhsil ehtiyaclarını ödəmək üçün transformasiya olunmasını tələb edir ki, yalnız belə bir məktəb gələcək nəslin təhsili və inkişafı ilə bağlı problemləri həll etmək iqtidarında ola bilir. Uzun illər cəmiyyətdə əlilliyi olan şəxslərə qarşı olan inamsız, bəzən də mənfi münasibət onlarım evə məhkum olmalarına, ictimai yerlərdən uzaqlaşmalarına gətirib çıxarmışdır. Müasir dövrdə dayanıqlı cəmiyyətin bərqərar olması üçün əllilliyi olan şəxsləri cəmiyyətin tam hüquqlu üzvü kimi qəbul edilməsini, onların cəmiyyətə tam və səmərəli şəkildə inteqrasiyasını özündə əks etdirən sosial yanaşma modelinin formalaşdırılmasını təmin etmək zəruridir. Uzun illər tibbi model dominantlıq etsə də 2008-ci il oktyabrın ikisində Azərbaycanda BMT-nin 13 dekabr 2006-cı tarixli "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası ratifikasiya edildikdən sonra aparılan geniş sosal islahatlar sayəsində yeni bir model tətbiq olunmağa başladı. Konvensiyaya görə əlilliyi olan şəxslərə cəmiyyətin hər bir sahəsində maksimum səviyyədə müstəqillik verilməli, onlara sərbəst fəaliyyət göstərmələri üçün olan bütün maneələri aradan qaldıracaq dövlət proqramları və strategiyaları həyata keçirilməlidir. Bütün bu proqramlar elmi əsaslara söykənməli və bünövrəsini isə təhsildə başlamalıdır.*

**Açar sözlər**: *inklüziv təhsil, universal öyrənmə dizaynı,əlilliyi olan şəxslər, prinsip.*

**Ключевые слова**: *инклюзивное образование, универсальный дизайн обучения, лица с инвалидностью, принцип.*

**Keywords**: *inclusive education, universal learning design, persons with disabilities, principle*

Bu gün inklüziv təhsil inkişaf səviyyəsində asılı olmayaraq dünyanın əksər ölkələrində prioritet məsələ kimi qəbul olunmuşdur. İnsan hüquqlarını ali məqamını təmin edərək təhsilin bütün şəxsləri əhatə etməsini, təhsil prosesində bütün uşaqların bərabər imkanlara malik olmasını, hər kəsin fərdi nailiyyətlərinə dəstək verilməlisi üçün inklüziv təhsil labüddür. Təhsilə inklüziv yanaşmanın qayəsi sistemli şəklində təmin olunan şərait və təlim vəsaitlərinin müxtəlif səviyyəli bilik və bacarıqlara malik olan uşaqlar üçün əlverişli olmasını tələb edir. Başqa sözlə, məsələ yalnız əlilliyi olan uşaqların ümumtəhsil məktəblərinə daxil edilməsində deyil, təhsil sisteminin özünün təkmilləşdirilərək geniş spektli olmasına, müxtəlif təhsil ehtiyaclı şagirdləri qəbul edə bilməsinə nail olmaqdır. Bu özlüyündə təhsil sisteminin bir sıra parametrlərinin, xüsusilə də qanunvericiliyin, təlim metodlarının, strategiyalarının, dərslərin planlaşdırılmasının, ən əsası təlim prosesinə olan yanaşmanın köklü surətdə dəyişdirilməsi deməkdir. Uzun illər ərzində asan çıxış yolu kimi qəbul edilən tibbi model uşağın

qüsurlu olmasını əsas götürərək onu bir şəxsiyyət kimi damğalıyır, məktəbə gələ biməməyini, proqramı yetirmədiyinin günahını da şagirddə görürdü. Ən yaxşı halda bu vəziyyət seqredasiya ilə, yəni şagirdlərin ehtiyaclarının qiymətləndirilməsi üçün xüsusi məktəblərə göndərilməsi ilə nətəcələnirdi. Hal-hazırda tətbiq olunan sosial model əllilliyi olan uşaqların deyil, əksinə cəmiyyətin onlara adaptasiyasını təmin edir. Yəni, məktəbin şəraiti, kadrları, təlim prosesi, ümumilikdə cəmiyyətin özü əllilliyi olan şagirdə əsasən uyğunlaşdırılmalı və təkmilləşdirilməlidir. Sosial model hər bir uşağı dəyərli hesab edir, onun güclü tərəflərini müəyyənləşdirir. İnklüziv təhsil öz bünövrəsini bütövlükdə insan hüquqlarının üzərində qurur. [1].

Biz bunu onun prinsiplərində tam aydınlığı ilə görə bilirik. Ümumilikdə inklüziv təhsil səkkiz prinsipə əsaslanır:

Birinci prinsipə görə: İnsanın dəyəri onun bacarıqları və nailiyyətləri ilə ölçülmür. [2, səh. 14-17].

Mahiyyətinə vardıqda bu prinsipin birbaşa Ümumdünya İnsan Hüquqları bəyannaməsinə soykəndiyinə əmin oluruq. Bəyannamədə də deyildiyi kimi bütün insanlar ləyaqət və hüquqlarına görə bərabər doğulduqlarına görə bir-birilərinə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar. İnsanlar, nə fiziki, nə də intellektual inkişaf səviyyələri, malik olduqları potensiallar vasitəsilə dəyər qazanmırlar. İnsanları dəyərli edən ən vacib amil onların məhz insan kimi dünyaya gəlmələrindədir.

İkinci prinsipə əsasən: Hər bir insan hiss etmək və düşünmək qabiliyyətinə malikdir. [2, səh. 14-17].

İnklüziv təhsilin bu prinsipi hər bir insanın hiss etmək və düşünmək qabiliyyətinə malik olduğunu vurğulayır. Xüsusilə də, əlilliyin olub olmamasından asılı olmayaraq hər bir insan fərqli tərzdə düşünə və hiss edə bilir ki, bütün bu xüsusiyyətlər insanları bənzərsiz edir. Müasir cəmiyyətin ən ali tolerant dəyəri də insanların hörmətlə yanaşmasıdır.

Üçüncü prinsip: Hər bir insan ünsiyyət hüququna malikdir adlanır. [2, səh. 14-17].

İnklüziv təhsil insanların ünsiyyət hüququnun vacibliyini ön plana çıxararaq onun mənəvi-psixoloji əhəmiyyətini açıqlayır. İnsan bir sosial varlıqdır. Bu səbəbdən mühitə adaptasiya olmaları üçün onun digərləri ilə ünsiyyətə girmələri təmin olunmalıdır.

Dördüncü prinsipə görə: Bütün insanların bir-birinə ehtiyacı vardır. [2, səh. 14-17].

Unutmamalıyıq ki, əslində bütün insanların, o cümlədən də, əlilliyi olan insanların bir-birlərinə ehtiyacı var. İnsanların ehiyaclarını yalnız insanlar ödəyə bilər. Yəni insanlar yaşamaları üçün hər zaman bir-birlərindən müəyyən mənada asılıdırlar. Sadəcə əlilliyi olan insanların ehtiyacları qismən də olsa digərlərinə baxanda qabarıq nəzərə çarpır. Bu isə insanlarda onların xüsusi qayğıya ehtiyacları olduqları təsəvvürü formalaşdırır. Ancaq inklüziv yanaşma hər bir insanın bənzərsiz olduğunu və özünəməxsus ehtiyaclara malik olduğunu vurğulayır.

Beşinci prinsipə əsasən: Əsl təhsil yalnız real qarşılıqlı münasibətlər zəminində həyata keçirilə bilər. [2, səh. 14-17].

Bu prinsip təhsilin öyrədən ilə öyrənən arasında qarşılıqlı insani münasibətlər zəminində qurulmasını təmin edir. Unutmaq olmaz ki, şagird müəllimdən yalnız elm deyil həmçinin davranış, sosial ünsiyyət vədişlərini də mənimsəyir.

Altıncı psinsip: Bütün insanlar öz həmyaşıdlarının köməyinə və dostluğuna ehtiyac duyurlar. [2, səh. 14-17]. Əgər ki unsiyyət bütün insanlara zəruri olan ehtiyac kimi qəbul olunursa onda bu ünsiyyətdin hər kəsin öz yaşıdları ilə olması daha effektiv hesab olunur. Tədqiqatlar göstərir ki, insanlar öz yaş kateqoriyasından olan insanlarla daha səlis və psixoloji maneə olmadan ünsiyyət qura, dostluq edə bilirlər.

Yeddinci prinsip Bütün təhsilalanların nailiyyətləri onların nəyi etməyi bacarmaları ilə ölçülür deməkdir. [2, səh. 14-17]. Bu prinsip təlim prosesində şagirdlərin qiymətləndirmə məsələsinə yeni yanaşma tələb edir. Şagirdlərin, xüsusilə əlilliyi olan uşaqların bilik və bacarıqlarını təyin olunmuş normativlərlə deyil, uşaqların əvvəlki bilik və bacarıqlarına əsasən qiymətləndirməyi zəruri hesab edir. Bir sözlə, şagirdlərin bacarıqları qiymətləndirilərkən real olaraq əldə etdikləri inkişaf əsas götürülməlidir.

Nəhayət, səkkizinci prinsip: Rəngarənglik insanın bütün cəhətlərini inkişaf etdirir deməklə bütün prinsipləri özündə birləşdirir. [2, səh. 14-17].

İnklüziv təhsilin prinsiplərini analiz etdikcə istinad etdikləri dəyərlərin yalnız əlilliyi olan uşaqlar üçün deyil ümumən bütün şagirdlərin maraqlarının təminatçısıdır. Bu prinsiplər əsasında təlim prosesinin çoxşaxəli və rəngarəng olması onu hamı üçün əlçatan olmasını təmin edilir. Bunun əyani təsdiqini isə təlim prosesində Universal Təlim Dizaynının tətbiqi zamanı görmüş oluruq.

Təlim prosesində universal dizaynın tətbiqi, hər kəsə yönəlmiş dərs prosesinin, "hamı üçün məktəb"in qurulmasına imkan verən bir metodologiyaya hesab olunur. İnklüziv dərs hər kəs üçün rahat, fərdiləşdirilmiş və əlçatan bir mühitdir - onu "universal dərs" də adlandırmaq olar. Əslində bütün müəllimlər, şagirdlər və onların valideynləri məktəbin öyrənmə və ünsiyyətin cəlbedici olduğu qonaqpərvər, müasir, təhlükəsiz və rahat bir yer olmasını istəyirlər. İnklüzivliyin əsasında müxtəlifliyi qəbul etmək, insanları "normal" və "xüsusi" (anormal, əlill, sağlamlıq imkanları məhdud və s.) kimi kateqoriyalara bölən sərhədləri aşmaq dəyərləri dayanır. [3].

Təlim prosesində Universal təlim dizaynının tətbiqi müasir təhsil sistemində artıq zəruridir. Nəzərə alsaq ki, bugünkü şagirdlər internet, video oyunlar və mobil telefonlar olmadan böyüyən nəsillərdən keyfiyyətcə çox fərqlidirlər. Şagirdlərin ani cavablara və stimullaşdırıcı, media ilə zəngin mühitə olan ehtiyacı interaktiv ağ lövhələrin böyük displeyləri, sensor idarəetmələri və səs imkanları ilə qarşılana bilər. [4]. Multimediya vasitələri rəqəmsal dövrdə şagirdlərə istədikləri məlumatları yeni, cəlbedici yollarla tapmaq, yaratmaq, sintez etmək, paylaşmaq, təşkil etmək və istifadə etmək imkanı verir ki, bu da nəticədə onların öyrənməyə olan marağını artırır və həvəsləndirir. Rəqəmsal və müasir texnologiyaların istifadəsi, yenilənmiş tədris metodları ilə birlikdə, təlim prosesinin özünü təkmilləşdirmək, zənginləşdirmək üçün nəzərdə tutulmuş universallıq səviyyəsini yaradır [10].

Müxtəlif əlilliyi olan şagirdlərin ortaq təhsil ehtiyaclarının müəyyən edilməsi, əlilliyi olan və olmayan uşaqların birgə tədrisinə metodoloji yanaşmaların müəyyən edilməsi, eləcə də tədris materiallarının və digər təlim vasitələrinin seçilməsi üçün əsasdır. Universal dizayna yönəlmiş tədris strategiyalarının tətbiqi hər bir şagirdin potensialının inkişafını təmin edən şəraitin yaradılmasını təşviq etməyə şərait yaradır. [5].

İnklüziv təhsil, bütün öyrənənlərin təlim ehtiyaclarının müxtəlifliyini nəzərə alaraq keyfiyyətli təhsil üçün şərait yaratmağı nəzərdə tutur. Bu kontekstdə, universal dizaynın təhsil praktikasında tətbiqi zəruriləşmişdir. Amerika tədqiqatçıları universal dizaynı "hər kəs üçün əlçatan və effektiv təhsil məkanı"nın yaradılmasına imkan verən şəbəkə adlandırmışdır. [6] Təlimdə bu dizaynın təmin edilməsi üçün bəzi şərtləri müəyyənləşdirmişdir:

– şagirdləri təhsil və sosial fəaliyyətlərə cəlb etmək üçün müxtəlif yolların hazırlanması;

– şagirdlərə akademik nəticələrin təqdim edilməsi və qiymətləndirilməsi üçün müxtəlif vasitə və metodlar təqdim etmək;

– şagirdlərin daha geniş kontekstdə şəxsi mövqelərini ifadə etmələri və cəlb etmələri üçün müxtəlif yolların yaradılması.

Təlim prosesində universal dizaynı qurmaq üçün onun təşkili texnologiyalarını diqqətə gətirməyə ehtiyac vardır. Təhsildə universal dizayn, tələb olunan təlim fəaliyyətlərini yerinə yetirərkən şagirdlər üçün təhsil xidmətlərinin birbaşa akademik mühitdə universal şəkildə əlçatan olmasını nəzərdə tutur. [9].

- müəllim ixtisaslarının artırılması üçün universal dizayn, adətən iki aspektdə nəzərdən keçirilir:

1) əlilliyi olan şəxslərlə işləyərkən müəllimlərin peşəkar səriştəsinin artırılması;

2) birbaşa tədris işi zamanı müəllim izahatları verərkən müəllim-şagird sistemində qarşılıqlı əlaqə. Bu tip universal dizayn həmçinin inklüziv təhsildə universal dizayna keçidin hazırlıq mərhələsi kimi də qəbul edilə bilər. [7]. Təlim prosesində rəngarəng, cəlbedici və dəstəkləyici öyrənmə mühitini yaradarkən müəllim 3 prinsipdən istifadə etməlidir.

1) təqdimatın çoxsaylı vasitələri;

Müəllim məzmunu müxtəlif vasitələrlə və üsullarla təqdim etməklə öyrənənlərin dərketnə yollarına asanlıqla nüfuz etməyə mkan qazanır.

2) özünüifadənin çoxsaylı vasitələri;

Müəllim strateji öyrənməni dəstəkləmək üçün fəaliyyət və özünüifadənin çoxsaylı vasitələri ilə necə öyrənməyin və bildiklərini necə ifadə etməyin çevik həllərini təqdim edir. Yəni şagirdlərə özlərinə uyğun və ən əsası rahat ifadə edə biləcəkləri yollarlı seçməkdə sərbəstlik verir.

3) şagirdləri təlim prosesinə cəlb etməyin müxtəlif yolları;

Emosional öyrənməni dəstəkləmək üçün cəlbedilmənin çoxsaylı vasitələri (yəni, öyrənmənin "nə üçün"-ü) dərsə marağın yaradılması və motivasiyanın saxlanması məqsədilə üçün çevik həllər təqdim edir. [8].

Bir sözlə nəticə olaraq insan hüquqlarına əsaslanan universal dizayn təlim prosesinə aşağıdakı imkanlar yaradır:

• Təlim prosesində universal dizayn vasitəsilə bütün şagirdlərin dərketmə üsullarını nəzərə alan təhsil mühitinin yaradılmasına imkan verir;

• Universal dizaynın köməyi ilə şagirdyönümlü yanaşmanı tətbiq etmək, tədris planlarının, tədris metodlarının, məktəb binalarının və s. maksimum dərəcədə şagirdə uyğunlaşdırılmasını yaratmaq mümkün olur;

• Universal dizayn və köməkçi texnologiyalar sayəsində müəllimlər şagirdlərin ehtiyaclarını ödəmək qabiliyyətini maksimum dərəcədə artırır;

• Universal dizayn tədris planını daha çevik edir;

• Köməkçi texnologiyalar sayəsində əlilliyi olan şagirdlərin qabiliyyətlərini artırmaq, çətinliklərini azaltmaq üçün fiziki cihazlar, qurğular və alətlərdən ağlabatan uyğunlaşmalar tətbib etmək olur.

Təhsildə inklüzivliyin təmin olunması yalnız əlilliyi olan uşaqlar üçün deyil, həm də məktəbdəki bütün şagirdlər üçün təhsil prosesinin əlçatanlığını təmin edir. Çünki bu sistem yalnız əllilliyi olan şagirdlərin deyil bütün uşaqların öz potensiallarına nail olma imkanını dəstəkləyir, özlərinəinamı artırır və bütünlüklə uşaqlarlar arasında bərabərhüquqlu mühit yaradır.

## İSTIFADƏ OLUNMUŞ ƏDƏBIYYAT:

1. "Hamı üçün Təhsil", UNESCO, Tailand, 1990
2. İnklüziv təhsil, Məlumat kitabçası; "Regional İnkişaf" İctimai Birliyi; Bakı 2018; səh. 14-17

3. Paliocosta, P., Blandford, S. Inclusion in school: a policy, ideology or lived experience? Similar findings in diverse school cultures // Support for Learning. 2010. Vol. 25. № 4. P. 179–186.

4. Prensky, M. Digital Natives, Digital Immigrants // MCB University Press. 2001. № 9 (5). URL: https://www.researchgate.net/publication/235316599 _Digital_Natives_Digital_Immigrants.

5. Лобок А. Доступность образования: формальная или содержательная? URL: https://ps.1sept.ru/article.php?ID=200405209

6. Nonprofit education research and development organization CAST, USA. URL: http://www.cast.org/.

7. Centre for Teaching Excellence, University of Waterloo, Canada. URL: https://uwaterloo.ca/centre-for-teaching-excellence/teaching-resources/teaching-tips/teaching-tips-planning-courses-and-assignments/what-universal-design

8. David M., What Really Works in Special and Inclusive Education: Using Evidence-Based Teaching Strategies, 2014

9. Bui, X. Quirk, C., Almazan, S., & Valenti, M. (2010). Inclusive education research and practice: Inclusion works. Hanover, MD: Coalition for Inclusive Education.

10. Alquraini, T., & Dianne Gut, D. (2012). Critical Components of Successful Inclusion of Students with Severe Disabilities: Literature Review. International Journal of Special Education, 27, 42-59.